# WMTC 2026

## World Mathematics Team Championship

## Təlimat Vərəqi

**Vacib məlumat**

Bu təlimat vərəqi WMTC 2026 seçim turu üçün hazırlanmışdır. Yarışın qaydaları və digər yarışlardan fərqlidir. İştirakçılar yarış günü aşağıdakı qaydalara və vaxt cədvəlinə ciddi riayət etməlidirlər.

## 1. Giriş

Hörmətli şagirdlər, müəllimlər və valideynlər,

Global Olympiad Center adından hər birinizi ürəkdən salamlayıram. Dünyanın ən nüfuzlu komanda riyaziyyat yarışlarından biri olan World Mathematics Team Championship (WMTC)-də sizləri görməkdən böyük qürur duyuruq.

Bu yarış yalnız biliklərin yoxlanılması deyil, həm də əməkdaşlıq, komanda ruhu və strateji düşünmə bacarıqlarının inkişafı üçün əvəzsiz bir imkandır. Sizlər bu yarışa uzun müddət hazırlaşaraq əziyyət çəkdiniz. Əminəm ki, burada qazandığınız biliklər, dostluqlar və təcrübə sizin gələcək həyatınızda mühüm rol oynayacaq. Hər birinizə uğurlar arzulayıram!

*— Xəyal İbrahimzadə*
*GOC Direktoru*

## 2. Təşkilati məlumat

| Bölmə | Məlumat |
|---|---|
| **Tarix** | 20 sentyabr 2026 |
| **Məkan** | Məkan |
| **Giriş vaxtı** | 09:30 - qapılar açılır |
| **Son giriş** | 10:30 - içəri daxil olma bağlanır |
| **Gecikənlər** | 11:00-dan sonra heç bir iştirakçı içəri buraxılmayacaq |
| **Yarışın başlanğıcı** | 11:00 |
| **Əlaqə üçün məsul şəxs** | Ləman Əlizadə - +994 50 224 51 40 |

## 3. Yaş kateqoriyaları

**Kateqoriyalar 2026-2027-ci tədris ili üzrə müəyyən edilir.**

Şagirdin kateqoriyası hazırda təhsil aldığı sinfə əsasən təyin olunur. Nəticələr və komanda bölgüsü zamanı bu kateqoriyalar nəzərə alınacaq.

| Kateqoriya | Siniflər |
| --- | --- |
| **Junior** | **5-6-cı siniflər** |
| **Intermediate** | **7-9-cu siniflər** |
| **Senior** | **10-11-ci siniflər** |

## 4. İştirak üçün lazım olanlar

- GOC buraxılış vərəqi - e-mail və ya şəxsi kabinetdən çap olunmuş formada.
- Şəxsiyyət vəsiqəsinin surəti.
- Qələm, sadə qələm və pozan. Bu ləvazimatlar təşkilatçı tərəfindən təqdim olunmayacaq.
- İmtahan müddəti uzun olduğuna görə şagirdlərin yanında su və yüngül qida olması tövsiyə olunur.

**Sənədlərin toplanması**

Əməkdaşlarımız yarış günü lazımi sənədləri yoxlayacaq və toplayacaq. Şagirdlər öz iş nömrəsini və ad-soyadını cavab kartına düzgün yazmalıdırlar.

## 5. Oturma və təşkilati qaydalar

- Oturma qaydası əvvəlcədən elan edilmiş komanda siyahısına uyğun aparılacaq.
- Hər komanda 6 nəfərdən ibarətdir və komanda üzvləri müəyyən olunmuş sxem üzrə yerləşdiriləcək.
- Partalar split-blok prinsipi ilə düzüləcək: hər partanın solu bir kateqoriyaya, sağı başqa kateqoriyaya aid ola bilər.
- Eyni kateqoriyadan olan şagirdlər yanaşı oturmayacaq.
- Hər komandaya əvvəlcədən təyin olunmuş proktor təhkim olunacaq. Proktor yalnız öz 6 nəfərlik komandasına cavabdehdir.
- İştirakçılar fasilələr zamanı təşkilatçının icazəsi olmadan yerlərini dəyişə bilməzlər.

# 6. Tədbir planı

| Saat | Hadisə |
|---|---|
| **09:30** | Qapıların açılışı |
| **10:30** | İçəri daxil olma bağlanır |
| **10:50** | Baş hakimin salamlaması |
| **10:55** | İndividual raund 1 cavab kartlarının paylanması |
| **10:56** | İndividual raund 1 suallarının paylanması |
| **11:00-11:20** | İndividual raund 1 imtahanı |
| **11:21** | Cavab kartlarının təhvili və fasilə. Yerindən tərpənmək olmaz |
| **11:27** | İndividual raund 2 cavab kartlarının paylanması |
| **11:28** | İndividual raund 2 suallarının paylanması |
| **11:30-12:10** | İndividual raund 2 imtahanı |
| **12:11** | Cavab kartlarının təhvili və fasilə. Yerindən tərpənmək olmaz |
| **12:17** | Relay raund 1 cavab kartlarının B iştirakçılarına paylanması |
| **12:18** | Relay raund 1 suallarının A və B iştirakçılarına təqdim olunması |
| **12:20-12:27** | Relay raund 1 |
| **12:27** | Relay raund 1 cavablarının B iştirakçılarından toplanması |
| **12:29** | Relay raund 2 suallarının A və B iştirakçılarına təqdim olunması |
| **12:30-12:37** | Relay raund 2 |
| **12:37** | Relay raund 2 cavablarının B iştirakçılarından toplanması |

| Saat | Hadisə |
|---|---|
| 12:38 | Relay raund 3 suallarının A və B iştirakçılarına təqdim olunması |
| 12:40-12:47 | Relay raund 3 |
| 12:48 | Relay raund 3 cavablarının B iştirakçılarından toplanması |
| 12:50-13:20 | 30 dəqiqə fasilə. Bütün iştirakçılar zalı tərk etməli və ya tamaşaçı yerlərində qalmalıdır. Zal komanda raundu üçün hazırlanır |
| 13:20 | İştirakçıların yenidən içəri dəvət olunması və komanda masasında əyləşməsi |
| 13:20-14:00 | Komanda raundu - 14 açıq sual |
| 14:01 | Cavab kartlarının təhvili və iştirakçıların zalı tərk etməsi |

# 7. İmtahan formatı

## 7.1. İndividual raund

- Raund 1: 15 çoxvariantlı test, 20 dəqiqə.
- Raund 1 üzrə qiymətləndirmə: düzgün cavab - 2 bal, boş cavab - 0.5 bal, səhv cavab - 0 bal.
- Raund 2: 8 açıq sual, 40 dəqiqə.
- Raund 2 üzrə qiymətləndirmə: 1-6-cı sualların hər biri 4 bal, 7-8-ci sualların hər biri 8 baldır.
- Raund 2-də boş və səhv cavablar 0 bal kimi qiymətləndirilir.

## 7.2. Relay raundu

- Komandalar A və B yarımqruplara bölünür.
- Relay raundu 3 mərhələdən ibarətdir və hər mərhələ 7 dəqiqə davam edir.
- A iştirakçısı sualı həll edir, cavabı yalnız B iştirakçısına ötürür.
- B iştirakçısı aldığı cavab əsasında cavabı cavab vərəqəsinə yazaraq proktora təqdim edir.
- A iştirakçısı heç bir halda cavabı birbaşa proktora verə bilməz. Bu qaydanın pozulması komandanın diskvalifikasiyasına səbəb ola bilər.
- Komandalar cavab vərəqəsini yalnız səssiz şəkildə, əli ilə arxaya uzatmaqla ötürə bilərlər.
- Əgər A iştirakçısı səhv cavab veribsə, B iştirakçısı düzəliş üçün vərəqi A-ya geri qaytara bilər.

## 7.3. Komanda raundu

- Komanda birgə 14 açıq suala cavab verir.
- Hər düzgün cavab 5 baldır.
- Maksimum komanda raundu balı 70 baldır.
- Turun sonunda komandadan yalnız bir cavab dəsti toplanacaq.

# 8. Balların hesablanma qaydası

| Bölmə | Hesablanma qaydası |
|---|---|
| **İndividual raund 1** | Düzgün cavab: 2 bal; boş cavab: 0.5 bal; səhv cavab: 0 bal |
| **İndividual raund 2** | 1-6-cı suallar: 4 bal; 7-8-ci suallar: 8 bal; boş/səhv cavab: 0 bal |
| **Relay raundu** | Düzgün cavab: 20 bal; səhv və boş cavab: 0 bal. Komandanın topladığı ümumi relay balı 3-ə bölünür |
| **Komanda raundu** | 14 sual, hər düzgün cavab 5 bal. Maksimum 70 bal |
| **Yekun komanda balı** | Fərdi raundların orta balı + relay raundunun balı + komanda raundunun balı |

# 9. Qiymətləndirmə və mükafatlandırma

## 9.1. Fərdi nəticələr

- Hər bir iştirakçı fərdi raundlardakı ümumi balına əsasən ayrıca qiymətləndirilir.
- İlk 10% - qızıl medal.
- Sonrakı 20% - gümüş medal.
- Sonrakı 30% - bürünc medal.
- Digər iştirakçılar - sertifikat.

## 9.2. Komanda nəticələri

- Komanda nəticəsi fərdi raundların orta balı, relay raundu və komanda raundu ballarının cəmi əsasında müəyyən edilir.
- Hər kateqoriya üzrə ilk 3 yerə çıxan komandalar kubok və sertifikatla mükafatlandırılır.
- Əgər xal bərabər olarsa, qaliblər mükafatlandırma günündə əlavə final raundu ilə müəyyən edilə bilər.

# 10. Nəticələrin elan olunması və apellyasiya

- Nəticələr şəxsi kabinetdə elan olunacaq.
- İştirakçılar nəticələr bölməsində topladıqları balı və yekun statuslarını görə biləcəklər.
- Nəticələr açıqlandıqdan sonra apellyasiya müraciəti şəxsi kabinetdə aktivləşdirilə bilər.
- Apellyasiya yalnız müəyyən edilmiş müddətdə qəbul olunur. Bu müddət bitdikdən sonra müraciətlər qəbul edilmir.
- Apellyasiya prosesi tamamlandıqdan sonra yekun nəticələr sistemdə yenilənir.
- Mükafatlandırma mərasimi barədə məlumat şəxsi kabinet və rəsmi kanallar vasitəsilə elan olunacaq.

## 11. Təhlükəsizlik və nizam-intizam qaydaları

- Təbir məkanında iki giriş mövcuddur: biri imtahan girişi, digəri çıxış üçündür.
- Fövqəladə hallarda iştirakçılar təşkilatçıların göstərişi ilə arxa çıxış qapısından dərhal çölə çıxmalıdırlar.
- Smartfon, ağıllı saat, kalkulyator, naqilsiz qulaqcıq və digər elektron cihazlardan istifadə qadağandır.
- Şagirdlər imtahan zamanı bir-birinə kömək edə və ya yardım ala bilməzlər.
- Şagirdlər bir-birindən ləvazimat istəyə bilməzlər. Hər kəs yalnız öz qələm və digər vasitələrindən istifadə etməlidir.
- İmtahan sualının məzmunu və ya mənası ilə bağlı otaq nümayəndəsinə sual vermək olmaz.
- Qaydaları pozan və ya xəbərdarlıq alan şagird həmin turdan və ya bütün yarışdan diskvalifikasiya oluna bilər.
- Diskvalifikasiya olunan şagird 1 il müddətinə bu yarışda iştirak edə bilməz.
- İmtahan zalını tərk etməzdən əvvəl cavab kartını mütləq proktora təhvil vermək lazımdır.

## 12. Ödəniş və dəyişiklik siyasəti

### Ödəniş geri qaytarılmır

WMTC qeydiyyatı üzrə edilmiş ödəniş geri qaytarılmır. Yalnız əsaslı hallarda və təşkilatçının təsdiqi ilə iştirakçı məlumatlarında və ya yarışla bağlı texniki məlumatlarda dəyişiklik edilə bilər. Dəyişiklik müraciətləri yarış günündən əvvəl rəsmi şəkildə təqdim olunmalıdır.

- Ödənişin edilməsi iştirakçının yarış qaydaları və şərtləri ilə razılaşdığını təsdiq edir.
- Qeydiyyat tamamlandıqdan sonra ödəniş ləğv edilmir və geri qaytarılmır.
- Təşkilatçı zərurət yarandıqda məkan, saat və təşkilati proseslərdə dəyişiklik etmək hüququnu saxlayır.

## 13. Son qeyd

- Yarış günü bütün iştirakçılar təşkilatçıların və proktorların göstərişlərinə əməl etməlidirlər.
- Global Olympiad Center ölkə ərazisində baş verən böyük tədbirlər, təhlükəsizlik tələbləri və ya iştirakçı sayı ilə bağlı zərurət yarandıqda yarışın məkanında, saatında və təşkilati qaydasında dəyişiklik edə bilər.
- Bütün şagirdlərə uğurlar arzulayırıq!

## 14. Sual nümunələri

https://drive.google.com/drive/folders/1JqFkV2zGnZnBdIycfzdGcai_MRJCLBQb?usp=sharing